Azərbaycan-Türkiyə əlaqələri: diplomatik münasibətlərin qurulmasından 33 il ötür

Azərbaycan və Türkiyə həm qonşu, həm də eyni etnik, dini və mədəni köklərə sahibdir. İki dövlət arasındakı münasibətlərin əsasında dil, adət-ənənə və milli dəyərlərlə yoğrulmuş qədim tarix dayanır.

Tarixin müxtəlif dönəmlərində Azərbaycan və Türkiyə arasında qurulan əlaqələr getdikcə daha da möhkəmlənmiş, dostluq və əməkdaşlıq nümunəsi olmuşdur. Azərbaycanın görkəmli şəxsiyyətləri Türkiyənin siyasi və ictimai həyatında fəal iştirak etmişlər. Bu şəxslərin fəaliyyəti Azərbaycan və Türkiyə arasındakı dostluğun, qardaşlığın ən dəyərli simvoluna çevrilmişdir. Azərbaycanlı mühacirlər Türkiyədə ölkəmiz haqqında obyektiv rəy formalaşdırmaq üçün böyük işlər görmüşlər.

(davamı 4-cü səhifədə)

Azərbaycan-Türkiyə əlaqələri: diplomatik münasibətlərin qurulmasından 33 il ötür

(əvvəli 1-ci səhifədə)

Onların təşəbbüsü ilə "Azərbaycan", "Azərbaycan Yurt Bilgisi", "Azəri Türk" və digər jurnallar nəşr edilmişdir. Bu nəşrlər mədəni əlaqələrin inkişafına və birliyin daha da güclənməsinə töhfə vermişdir. Azərbaycan və Anadolu türkləri tarix boyu bir-birinə arxa olmuş, çətin günlərdə bir-birini dəstəkləmişlər. Bu möhkəm qardaşlıq bağları bu gün də birgə inkişafın, güclü əməkdaşlıq nümunəsinin əsasıdır.

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) 1918-1920-ci illər arasında mövcud olduğu dövrdə Osmanlı İmperiyası ilə münasibətlərə böyük önəm vermişdir. Bu münasibətlər həm strateji, həm də siyasi baxımdan çox mühüm idi, çünki AXC-nin yaranması və inkişafı Osmanlı İmperiyasının hələ də güclü olduğu dövrə təsadüf edirdi. 1918-ci il iyulun 4-də AXC və Osmanlı İmperiyası arasında imzalanmış Batumi müqaviləsi ölkəmizin müstəqil dövlət olaraq tanınması və hər iki tərəfin qarşılıqlı maraqlarını qorumaq məqsədi daşıyırdı. Müqavilənin əsas şərtləri arasında Osmanlı İmperiyasının Azərbaycan Xalq Cümhuriyyətinə hərbi və iqtisadi dəstək verməsi, həmçinin hər iki dövlətin bir-birinin ərazi bütövlüyünə hörmət etməsi mövcud idi. Bununla yanaşı, Osmanlı hərbi qüvvələri Azərbaycan torpaqlarında mövcudluqlarını qorumağa davam edirdilər, xüsusən də Şimali Azərbaycan və Qərbi Azərbaycan ərazilərində. Osmanlı İmperiyası bu müqavilə ilə Azərbaycanı öz müttəfiqi kimi qəbul edirdi, lakin bu əlaqələr çox uzun müddət davam etmədi, çünki Osmanlı İmperiyası I Dünya müharibəsində məğlub olduqdan sonra Azərbaycanda müstəqilliyini itirdi.

XX əsrin 90-cı illəri həm Azərbaycan, həm də Türkiyə üçün mühüm tarixi mərhələ hesab edilir. Uzun müddət beynəlxalq arenada türk dünyasını yalnız Türkiyə təmsil edirdi. Lakin SSRİ-nin dağılması ilə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan müstəqillik qazandı və türk dünyasında yeni bir canlanma dövrü başladı. Bu dövr Azərbaycan və Türkiyə arasında hərtərəfli əməkdaşlığın təməlinin qoyulduğu bir mərhələdir. İki dövlət arasındakı yaxınlaşma qlobal inteqrasiya proseslərinə uyğun şəkildə inkişaf edərək, hər iki ölkənin strateji maraqlarına xidmət etdi. Bu əməkdaşlıq yalnız siyasi deyil, iqtisadi, mədəni və digər sahələrdə də özünü göstərdi.

Azərbaycan və Türkiyə arasındakı diplomatik əlaqələr 1992-ci il yanvarın 14-də qurulmuşdur. Həmin ilin avqustunda Azərbaycanın Türkiyədəki səfirliyi fəaliyyətə başlamış, 1993-cü ilin yanvarında İstanbulda, 2004-cü ilin aprelində isə Qarsda Baş konsulluqlar açılmışdır. Eyni zamanda Türkiyə də Bakıda Səfirlik, Naxçıvan və Gəncədə Baş konsulluqlar vasitəsilə iki ölkə arasında münasibətləri inkişaf etdirir. Türk xalqının böyük lideri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" sözləri və ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi bu münasibətlərin möhkəm təməlini təşkil edir. Bu fikir iki xalq arasındakı yaxınlığı və birliyi ən gözəl şəkildə ifadə edir.

Azərbaycan və Türkiyə arasında tarixi köklərə və qardaşlıq əlaqələrinə əsaslanan münasibətlər bütün sahələrdə, o cümlədən siyasi müstəvidə uğurla inkişaf edir. İki ölkə liderlərinin qarşılıqlı səfərləri, dövlətlərimiz arasındakı çoxşaxəli əməkdaşlığın inkişafına böyük töhfə vermiş və mühüm nəticələr əldə edilməsinə səbəb olmuşdur. 15 sentyabr 2010-cu il tarixində İstanbulda imzalanan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının (YSSƏŞ) yaradılması haqqında Birgə Bəyannamə ilə fəaliyyətə başlayan Şuranın müntəzəm iclasları iki ölkə arasındakı münasibətlərin hərtərəfli genişlənməsinə və möhkəmlənməsinə şərait yaratmışdır. Şura çərçivəsində səkkiz iclasdan sonuncusu 25 fevral 2020-ci ildə Bakıda keçirilmişdir. Bu iclaslarda bütün sahələr üzrə əlaqələr dəyərləndirilmiş, əməkdaşlıq istiqamətlərinə dair yüksək səviyyədə göstərişlər verilmiş və bir sıra sahələri əhatə edən əhəmiyyətli sənədlər imzalanmışdır.

Türkiyə Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünü və Ermənistanın tarixi ərazilərimizi 28 il işğal altında saxladığı dövrdə ölkəmizin ədalətli mövqeyini hər zaman müdafiə etmiş, 2020-ci ildə baş verən Vətən müharibəsi zamanı qətiyyətli siyasi və mənəvi dəstək vermişdir.

Azərbaycan-Türkiyə münasibətləri 15 iyun 2021-ci ildə tarixi mədəniyyət incisi, 28 illik işğaldan sonra azad edilmiş Şuşa şəhərində imzalanan "Şuşa Bəyannaməsi" ilə tamamilə yeni zirvəyə yüksəldi. Bu bəyannamə iki qardaş ölkə arasında mövcud dostluq və tərəfdaşlığı rəsmi müttəfiqlik səviyyəsinə çatdırdı. Artıq Azərbaycan və Türkiyə yalnız tarixi və mədəni bağlarla deyil, həm də strateji ittifaqla birləşən güclü birlik formalaşdırmışdır.

"Şuşa Bəyannaməsi" ilə Azərbaycan-Türkiyə əlaqələri daha da dərinləşmiş, yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu sənəd hər iki dövlətin bütün sahələrdə münasibətlərini müasir dövrün çağırışlarına uyğun şəkildə daha da möhkəmləndirmək üçün bir yol xəritəsi oldu. Eyni zamanda "Şuşa Bəyannaməsi"nin hər iki ölkənin parlamentləri tərəfindən təsdiqlənməsi, ona beynəlxalq müqavilə statusu qazandıraraq bu tarixi sənədin əhəmiyyətini daha da artırmışdır. Bu bəyannamə Azərbaycan-Türkiyə birliyinin gələcəyə doğru atılmış ən böyük və güclü addımlarından biridir. "Şuşa Bəyannaməsi"nin real nəticələri artıq öz təsirini göstərməkdədir. Azərbaycan Ordusunun Türkiyə modelinə keçidi istiqamətində atılan qətiyyətli addımlar bu əməkdaşlığın ən bariz nümunələrindən biridir. Bununla yanaşı, digər dövlət qurumları da fəaliyyətlərini bəyannamənin müddəalarına uyğun olaraq yenidən qururlar. İki qardaş dövlət arasında müxtəlif sahələrdə yeni əməkdaşlıq platformaları yaradılır, konkret fəaliyyət planları hazırlanaraq həyata keçirilir. Bu məqsədlə çoxsaylı qarşılıqlı səfərlər təşkil olunur, təcrübə mübadiləsi aparılır və ortaq məqsədlər uğrunda birlikdə çalışılır. Müxtəlif sahələrdə yaradılan işçi qrupları isə konkret layihələrin mərhələli şəkildə icrasını təmin edir.

İkitərəfli münasibətlərin inkişafına dövlətlər arasında həyata keçirilən ali və digər səviyyələrdəki səfərlər xüsusi töhfə vermişdir. Belə ki, 1994-2022-ci illərdə Azərbaycan Respublikası prezidentlərinin Türkiyəyə 40-dan çox artıq rəsmi və işgüzar səfəri baş tutmuşdur. Prezident İlham Əliyev 10 iyun 2024-cü ildə qardaş Türkiyəyə səfər etmişdir. Bu müddətdə Türkiyə prezidentləri Azərbaycana 20-dən artıq rəsmi və işgüzar səfər etmişlər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 2024-cü ilin noyabrında COP29-da iştirak etmək üçün ölkəmizdə səfərdə olub.

Türkiyə və Azərbaycan strateji tərəfdaşlıq çərçivəsində bir çox nəhəng layihələrin əsas iştirakçılarından biridir. Cənub Qaz Dəhlizi kimi mühüm enerji layihəsi Avropanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, iki qardaş ölkənin iqtisadi gücünü daha da artırır. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu kimi layihələr isə regionun nəqliyyat və logistika sahəsindəki əhəmiyyətini artıraraq qlobal ticarət əlaqələrinə yeni nəfəs verir. Bu layihələr təkcə Azərbaycan və Türkiyənin deyil, bütövlükdə regionun rifahına və inkişafına xidmət edərək, iki dövlətin strateji əməkdaşlığını dünya miqyasında bir uğur hekayəsinə çevirir. Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyini artırmaq və alternativ enerji mənbələri təmin etmək məqsədilə həyata keçirilən ən mühüm layihələrdən biridir. Bu layihə Azərbaycanın "Şahdəniz" yatağından hasil edilən təbii qazın Türkiyə vasitəsilə Avropaya çatdırılmasını təmin edir.

2006-cı ildə istismara verilmiş Bakı-Tbilisi-Ceyhan neft kəməri Xəzər dənizindən hasil edilən neftin Gürcüstan və Türkiyə üzərindən Aralıq dənizindəki Ceyhan terminalına çatdırılmasını təmin edir. Ümumi uzunluğu 1768 km olan bu boru kəməri Azərbaycanın neftini qlobal bazara çıxaran əsas infrastruktur layihəsidir.

2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi regionun nəqliyyat və logistika sektorunda inqilabi dəyişikliklər edib. Bu dəmir yolu Azərbaycanın Xəzərdən başlayan ticarət yollarını Gürcüstan və Türkiyə üzərindən Avropaya birləşdirir.

Musa BAĞIRLI,
"Respublika".